**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

Bakı şəhəri № 230/4 9 aprel 2012-ci il

Auditorlar Palatasının üzvləri tərəfindən üzvlük haqqının ödənilməsi vəziyyəti barədə

Auditorlar Palatası Şurasının 20 dekabr 2011-ci il 226/4 saylı qərarının 3-cü bəndinə əsasən Palatanın üzvləri tərəfindən 2012-ci ilin yanvar-fevral aylarında üzvlük haqqının ödənilməsi ilə bağlı Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun məlumatını müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Palatanın üzvləri tərəfindən 2012-ci ilin yanvar-fevral aylarında üzvlük haqqının ödənilməsi ilə bağlı Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun məlumatı nəzərə alınsın (əlavə olunur).

2. Auditorlar Palatası Şurasının 20 dekabr 2011-ci il 226/4 saylı qərarının 3-cü bəndinə əsasən Palatanın üzvləri olan:

auditor təşkilatları - "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin (idarəedici partnyor İlqar Vəliyev), Deloitte & Touche" MMAC-nin (direktor Nuran Kərimov), "PRAYSVOTERHAUSKUPERS AUDİT AZƏRBAYCAN" MMC-nin (audit üzrə partnyor Teymur Abasquliyev), "L.B.AUDİT XİDMƏTİ" MMC-nin (direktor Lamiyyə Bayramova);

sərbəst auditorlar - Namiq Abbaslı, Vaqif Axundov, Şərif Bəşirov, İlham Hacıəzizov, İbiş Əliyev, Vəli Kərimov və Nigar Rəhimova tərəfindən 2012-ci il üçün hesablanmış üzvluk haqqının 2012-ci ilin yanvar-fevral aylarında tam məbləğdə ödənilməsi müsbət hal kimi qiymətləndirilsin və onlara təşəkkür elan edilsin.

3. Auditin təşkili və təhlili idarəsinə (M.Hacıyev) tapşırılsın ki, bu qərarın 2-ci bəndində göstərilən şəxslərin uçot vərəqələrində müvafiq qeydlər aparılsın.

4. Bu qərar Auditorlar Palatasının internet saytında yerləşdirilsin

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**